**Xarici ticarət əlaqələri haqqında**

2022-ci ilin yanvar-sentyabr aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 178 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 121 ölkəyə məhsul ixrac olunmuş, 164 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2022-ci ilin yanvar-sentyabr aylarında ölkənin xarici ticarət dövriyyəsi 41256,2 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 30962,9 milyon dollarını və ya 75,1 faizini ölkədən ixrac olunmuş məhsulların, 10293,3 milyon dollarını (24,9 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 20669,6 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2021-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 71,9 faiz, real ifadədə 9,1 faiz, o cümlədən ixrac 13,3 faiz, idxal isə 1,1 faiz artmışdır.

2022-ci ilin yanvar-sentyabr aylarında qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 17,0 faiz, real ifadədə 5,8 faiz artaraq 2116,8 milyon dollar təşkil etmişdir.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən ölkənin xarici ticarət dövriyyəsinin 37,2 faizi İtaliya, 10,9 faizi Türkiyə, 6,4 faizi Rusiya, 4,0 faizi Hindistan, 3,8 faizi Çin, 3,5 faizi İsrail, 2,8 faizi Yunanıstan, 2,4 faizi Birləşmiş Krallıq, hər biri 1,8 faiz olmaqla Almaniya, Çexiya və Xorvatiya, 1,5 faizi Gürcüstan, hər biri 1,4 faiz olmaqla İspaniya və Portuqaliya, 1,3 faizi Ukrayna, hər biri 1,1 faiz olmaqla ABŞ və Vyetnam, hər biri 1,0 faiz olmaqla İsveçrə, Qazaxıstan və Tunis, 12,8 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.




İxracın 49,4 faizini İtaliyaya, 9,2 faizini Türkiyəyə, 4,8 faizini Hindistana, 4,6 faizini İsrailə, 3,7 faizini Yunanıstana, 2,6 faizini Birləşmiş Krallığa, 2,3 faizini Xorvatiyaya, 2,2 faizini Çexiyaya, 2,1 faizini Rusiyaya, 1,9 faizini Portuqaliyaya, 1,7 faizini İspaniyaya, 1,6 faizini Gürcüstana, 1,4 faizini Tunisə, hər biri 1,2 faiz olmaqla İsveçrə və Vyetnama, 1,1 faizini Ukraynaya, 1,0 faizini Rumıniyaya, hər biri 0,9 faiz olmaqla İrlandiya və Almaniyaya, 6,2 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (28,4 faiz), Türkiyəyə (24,2 faiz), Gürcüstana (6,8 faiz), İsveçrəyə (6,4 faiz), ABŞ-a (3,0 faiz), Qazaxıstana (2,8 faiz), Niderlanda (2,5 faiz), Rumıniyaya (2,3 faiz), İtaliyaya (2,1 faiz), Bolqarıstana (2,0 faiz), Hindistana (1,4 faiz), Özbəkistana (1,4 faiz), Ukraynaya (1,3 faiz), Çinə (1,2 faiz), Belarusa (1,2 faiz), Birləşmiş Krallığa (1,1 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,6 faizi Rusiya, 15,8 faizi Türkiyə, 14,4 faizi Çin, 4,4 faizi Almaniya, hər biri 3,5 faiz olmaqla ABŞ və Qazaxıstan, 3,3 faizi İran, 2,8 faizi Türkmənistan, 2,2 faizi İtaliya, 2,1 faizi Yaponiya, 1,9 faizi Koreya, hər biri 1,8 faiz olmaqla Belarus, Birləşmiş Krallıq və Ukrayna, 1,7 faizi Fransa, 1,6 faizi Hindistan, 1,3 faizi Braziliya, 1,2 faizi Finlandiya, 1,0 faizi Özbəkistan, 15,3 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.

2022-ci ilin yanvar-sentyabr aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 5,6 faiz, tütün – 88,6 faiz, çay – 93,0 faiz, təbii üzüm şərabları və üzüm suslosu – 23,6 faiz, mineral gübrələr – 34,4 faiz, emal olunmamış alüminium – 24,2 faiz, qara metallardan çubuqlar – 35,1 faiz, sement klinkerləri – 14,5 faiz, qara metallardan borular – 24,8 faiz, bentonit gili – 3,3 faiz artmış, təzə tərəvəz ixracı isə 6,2 faiz, kartof – 14,8 faiz, şəkər – 45,3 faiz, bitki yağları – 23,4 faiz, meyvə və tərəvəz şirələri – 13,9 faiz, meyvə və tərəvəz konservləri – 7,7 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar – 37,2 faiz, pambıq lifi – 35,8 faiz, polietilen – 16,0 faiz, polipropilen – 14,6 faiz, pambıq ipliyi – 48,9 faiz, qara metallardan yarımfabrikatlar – 42,4 faiz azalmışdır.

2021-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə 2022-ci ilin yanvar-sentyabr aylarında buğda idxalı 7,9 faiz, xam şəkər – 3,4 faiz, təzə meyvə – 9,0 faiz, kərə yağı, digər süd yağları və pastaları – 24,8 faiz, unlu qənnadı məmulatları – 11,3 faiz, quş əti və onun əlavə məhsulları – 10,9 faiz, dərman vasitələri – 27,1 faiz, polad prokatı – 35,1 faiz, sintetik yuyucu vasitələr – 9,4 faiz, məişət kondisionerləri – 41,8 faiz, mebellər – 11,5 faiz, polietilen – 67,9 faiz, qara metallardan çubuqlar – 22,4 faiz, avtobuslar – 2,4 dəfə, polipropilen – 17,7 faiz, sement – 34,0 faiz artmış, bitki yağları idxalı isə 1,8 faiz, şokolad və şokolad məhsulları – 6,1 faiz, çay – 0,5 faiz, kartof – 2,6 faiz, təzə tərəvəz – 28,2 faiz, mal əti – 40,1 faiz, siqaretlər – 78,0 faiz, minik avtomobilləri – 15,7 faiz, qara metallardan borular – 17,6 faiz, hesablama maşınları, blok və qurğuları – 24,9 faiz, yük avtomobilləri – 13,0 faiz, rezin şinlər – 1,9 faiz, mineral gübrələr – 38,0 faiz, paltaryuyan maşınlar – 28,2 faiz, qara metallardan künclüklər – 8,1 faiz, məişət soyuducuları – 38,0 faiz azalmışdır.

*Əlaqə telefonu: 377 10 70 (22-60)*